***Fərhad CABBAROV****

# BİR DAHA "DİFAİ" PARTİYASI VƏ PARTİYANIN İLK BƏYANNAMƏSİ HAQQINDA

**Açar sözlər:** erməni-azərbaycanlı münaqişəsi, konsolidasiya, "Difai", bəyannamə
**Keywords:** armenian-azerbaijani conflict, consolidation, "Difai", declaration
**Ключевые слова:** армяно-азербайджанский конфликт, консолидация, «Дифаи», прокламация

1905-1906-cı illər tarixdə ilk irimiqyaslı erməni-azərbaycanlı münaqişəsi ilə yadda qalmışdır. Cənubi Qafqazın bir sıra şəhərlərini əhatə etmiş bu münaqişə zamanı ermənilər müsəlman əhalisinə qarşı terror və qətllər törətmiş, dinc sakinləri öz yurdlarından didərgin salmışlar. 1905-ci ildə başlanan erməni-müsəlman qırğını Şuşadan da yan keçməmişdir. Buranı terrorun əsas istinadgahlarından biri kimi seçən daşnaklar general-qubernator V.N.Qoloşapovun başçılıq etdiyi yerli çar administrasiyası ilə əlbir olub yerli müsəlman əhalisinə qarşı qırğınlar törədirdilər. 1906-cı ilin yayında, dördillik fasilədən sonra Əhməd bəy Ağaoğlu doğulub boya-başa çatdığı şəhərə gəlir və Şuşadakı qanlı hadisələrin nəticələrini əyani şəkildə görmək imkanını əldə edir. "Kaspi" qəzetinin 1 sentyabr 1906-cı il tarixli sayında Ə.Ağaoğlunun Şuşadan göndərdiyi teleqramı dərc olunmuşdu: "Sülh komissiyası qəzalara baş çəkir, camaat sülh istəyir. Ermənilərin barışmaz qrupu buna mane olur, lakin ona qarşı digər erməni qrupu fəaliyyət göstərir və onlar arasında kəskin mübarizə gedir. Hər şeyi itirmiş sakinlər öz yerlərinə qayıtmasalar, sülh mümkün olmayacaq." (14)

Ə.Ağaoğlunun Şuşada olması çox vacib işin həyata keçməsinə – erməni terrorunun qarşısını almaq və onu dəstəkləyən hökumət məmurlarına qarşı mübarizə aparmaq üçün ilk milli siyasi təşkilatın yaradılmasına təkan verdi. Sonu görünməyən millətlərarası münaqişə Azərbaycan ictimai qüvvələrini millətin mənafeyi naminə birləşməyə stimullaşdırırdı. "Daşnaksutyun" partiyası kimi qüvvəyə malik olan, millətlərarası ədavətə çoxdan hazırlaşan ermənilərdən fərqli olaraq, azərbaycanlılar hazırlıqsız idi və

* **Cabbarov Fərhad** - AMEA Milli Azərbaycan Tarixi Muzeyinin elmi katibi, tarix üzrə fəlsəfə doktoru, dosent





əslində terrorla üz-üzə müdafiəsiz qalmışdılar. Əgər hansısa bölgədə hücumları dayandırmaq, təşəbbüsü ələ almaq mümkün olurdusa, bütün bunlar yalnız Azərbaycan özünümüdafiə dəstələrinin qəhrəmanlığı və ya həmin bölgədə erməni hərbi qüvvələrinin zəifliyi nəticəsində baş verirdi. Bütövlükdə isə müqavimət qeyri-mütəşəkkil idi. Dinc əhali arasında itkilər və maddi ziyan daha çox Azərbaycan tərəfinin payına düşürdü. Bununla əlaqədar milli ziyalılar Azərbaycan əhalisinin müdafiəsi üçün cəmiyyətin siyasi konsolidasiyasının zəruriliyini get-gedə daha aydın anlamağa başlamışlar. Hələ 1906-cı ilin fevral ayında Tiflisdə keçirilən erməni-müsəlman barışıq qurultayında çıxış edərkən Ə.Ağaoğlu həm hökumətə, həm də ermənilərə ünvanlanmış kəskin xəbərdarlıq etmişdir. O, daşnak partiyasının cəzasız qaldığını və Qafqazda terrorun tüğyan etdiyini vurğulayaraq bildirmişdir: "...indi ki, bir müsəlləh partiya on beş ildən bəri təşkil olunub və hökumət adamları bunu bilib də, nəinki əlac etməyir, bəlkə onunla həməqidədirlər, bizim istər hökumətdən, istər ermənilərdən belə partiyanın götürülməyini təmənna etməyimiz faydasızdır. Biz ancaq özümüz öz əlacımızı edək. Bizim də gərək mükəmməl və müsəlləh partiyalarımız olsun. Bizim də gərək daşnaksutyunlarımız olsun. Bir hökumət ki, bir tərəfdən belə işlərə dözür, gərək o biri tərəfdən də dözə, yoxsa ki, hərc-mərc olar." (12, s. 93)

Azərbaycan millətinin siyasi təşkilatlanma prosesi 1906-cı ilin yayında – proqramı və taktikası əhaliyə daha yaxın olan kütləvi partiya yaranan zaman özünü qabarıq şəkildə göstərdi. Söhbət rəsmən Qafqaz Ümummüsəlman "Difai" Komitəsi və ya Qafqaz Ümummüsəlman "Difai" İttifaqı adlandırılan, 1906-cı ilin avqust-sentyabr aylarında Bakıda meydana gələn "Difai" partiyasından gedir (6, v. 10). Arxiv mənbələri, o cümlədən Qafqaz administrasiyası nümayəndələrinin rəsmi yazışmaları, polis məlumatları təsdiqləyir ki, Ə.Ağaoğlu "Difai"nin yaradıcısı və rəhbəri idi (2, v. 6; 3, v. 151; 5, v. 35; 9, v. 15). Maraqlıdır ki, Əhməd bəy nə özünün tərcümeyi-halında, nə də sonrakı xatirələrində bu barədə heç nə yazmamışdı. Arxiv mənbələrindən bəlli olur ki, siyasi təşkilatın yaradılması təşəbbüsü Ə.Ağaoğlunun Şuşa səfəri zamanı meydana gəlmişdir. Şuşada olarkən Əhməd bəy "nüfuzlu və hörmətli" müsəlmanları toplamış, toplantı zamanı onlar "olduqca həyəcanlı halda idilər və siyasi xarakterli nitqlər söyləyirdilər. Yeri gəlmişkən, Ağayev... və başqaları deyirdilər ki, biz müsəlmanlar bu vaxtadək rus hökumətinə sadiq idik, o isə gördüyünüz kimi, bizə bu cür

minnətdarlıq etdi. General Qoloşapov erməni xumbları [daşnak silahlı dəstələri – F.C.] ilə ittifaqda bizə qarşı çıxış etdi, evlərimizi, şahzadələrin evlərini, məscidimizi dağıtdı, minlərlə müsəlman aclığa düçar oldu..." (3, v. 152) Şuşa ilə yanaşı Ə.Ağaoğlu oxşar yığıncaqları Ağdamda və Cavanşir qəzasının Bardağ kəndində keçirdi. Nəticədə bütün adıçəkilən yerlərdə "komissiyalar", başqa sözlə, "Difai"nin özəkləri yaradılmışdır (3, vv. 152-153).

1906-cı il oktyabrın 13-də "İrşad" qəzetində Qafqaz Ümummüsəlman "Difai" Komitəsinin bəyannaməsi dərc olunmuşdur (11). Bəyannamənin məhz Ə.Ağaoğlunun redaktoru olduğu qəzetdə çapdan çıxması onun bu təşkilatla əlaqələrini dolayısı ilə təsdiq edir. Güman etmək olar ki, sənədin müəllifi də Əhməd bəyin özü idi. Redaksiyanın sənədin sonunda verdiyi qeyddə göstərilirdi ki, məktub (mətndə bəyannamə belə adlanırdı) poçt vasitəsi ilə daxil olub, rus və müsəlman (yəni Azərbaycan türkcəsi) dillərində yazılıb. Buradan belə bir nəticəyə gəlmək olar ki, hər iki dildə olan mətnlər identikdir. Lakin rus dilində və Azərbaycan türkcəsində olan mətnlər üzərində iş zamanı olduqca maraqlı cəhət üzə çıxdı ki, həmin cəhət əvvəllər mütəxəssislərin diqqətindən kənarda qalmışdı. Məsələ burasındadır ki, tarixçilərin ixtiyarında olan iki mətn bir-birindən köklü şəkildə fərqlənir. Belə ki, "İrşad"da dərc olunan variant (Azərbaycan türkcəsində) Azərbaycan Respublikasının Dövlət Tarix Arxivində saxlanılan variantdan (rus dilində) daha yumşaq tərzdə yazılıb (6, vv. 15-17; 7, vv. 141-142). Azərbaycan dilində olan mətndə Qafqaz canişini İ.İ.Vorontsov-Daşkovun, general-qubernator V.N.Qoloşapovun və digər hökumət təmsilçilərinin adları çəkilmir, lakin rusca variantda onlar nəinki kəskin tənqid edilir, eyni zamanda, açıq-aşkar qorxaqlıqda və daşnaklara havadarlıq etməkdə günahlandırılırlar. Qeyd etmək lazımdır ki, bu vaxta qədər "Difai"nin tarixinə həsr olunmuş əsərlərin müəllifləri bu məqama diqqət yetirməmişlər. Partiyanın ilk bəyannaməsi haqqında danışarkən onlar bir qayda olaraq, "İrşad" qəzetinə istinad edir, əslində isə arxiv sənədindəki mətni təqdim edirdilər. Lakin hər iki mətndən göründüyü kimi, onlar arasında prinsipial fərqlər var və həmin fərqlər ilk növbədə hakimiyyət təmsilçilərinin fəaliyyətinin qiymətləndirilməsinə aiddir.

Çox maraqlıdır ki, "Difai"nin bəyannaməsini çap edən redaksiya mətnin sonunda "İdarədən" başlıqlı aşağıdakı sözardı vermişdir: "...elannaməni bilkuliyə [tamamən – F.C.] dərc etmək olardı, əgər Qafqaz canişini





qraf Vorontsov Daşkov həzrətləri barəsində bəzi nalayiq lisanda olmasaydı. Qraf həzrətlərinin nə qədər küll [bütün – F.C.] Qafqaza xeyirxah və ələlxüsus biz müsəlmanların ehtiyacat və dərdlərinə qalıb tərəqqi etmələrinə müsaidə [yardım – F.C.] olunması cümlənin məlumudur. Bu cəhətdən biz elannamədə qraf barəsində olan nalayiq sözləri layiq çap hesab etməyib onları götürdük və bu elannaməni buraxan firqəyə tövsiyə edirik ki, öz milli mülahizatində ədalət və insafı əldən buraxmasın. Qraf barəsində isə yazılan sözlər ədalət və insafdan kənar olmalarıhər kəsə aşikardır." (11)

Təqdim olunan yazıdan aşağıdakılar bəlli olur: 1) "İrşad"da dərc edilən mətn "Difai" partiyasının bəyannaməsinin ixtisar olunmuş variantıdır; 2) arxivdə qorunub saxlanılan rusca mətn çox güman ki, "İrşad"da ixtisara məruz qalan bəyannamənin tam variantıdır. Şübhəsizdir ki, sənədin tam şəkildə çap olunmasının həm "İrşad"ın, həm də özünün taleyinə mənfi təsir göstərəcəyindən ehtiyatlanan Ə.Ağaoğlu qəzetdə bəyannamənin mətnini "kəsməyə" və canişinin ünvanına reverans etməyə məcbur olmuşdur.

"Difai" ilk bəyannaməsində mövcud duruma dair öz münasibətini dəqiq ifadə edərək göstərmişdir ki, müsəlmanların bütün bəlaları davam edən millətlərarası toqquşmalar, sosial-mədəni durğunluq və müsəlman cəmiyyətinin ətaləti ilə əlaqədardır. Bundan xilas olmaq üçün siyasi təşkilatın yaradılması zərurəti əsaslandırılırdı. Həmin təşkilat maarif və güc vasitəsilə müsəlmanların vəziyyətinin yaxşılaşdırılmasına nail olmalı idi. Bəyannamənin böyük hissəsi ermənilərlə münasibətlərə və yerli hakimiyyətin tənqidinə həsr edilmişdir. Difaiçilər hökumət təmsilçilərini daşnaklardan qorxmaqda və səhlənkarlıqda günahlandırırdılar. Davam edən qırğınla əlaqədar bildirilirdi ki, ermənilərin əsas məqsədi müsəlmanları qırmaq və Qafqazdan qovmaq, daha sonra isə özləri üçün milli muxtariyyət yaratmaqdır. Bu planı gerçəkləşdirməkdən ötrü ermənilər Zəngəzur, Şuşa, Cəbrayıl, Cavanşir qəzalarında Azərbaycan əhalisini qırır, öz yurdlarından qovulmuş minlərlə kəndli ev-eşiksiz, müdafiəsiz, yeməksiz qalaraq qaçqın həyatını yaşayır. Canişin, general-qubernator və başqa hökumət səlahiyyətliləri isə bütün bunlara göz yumur.

Bəyannamədən görünür ki, "Difai" ermənilərə və hökumət administrasiyasına qarşı əsas mübarizə vasitəsi kimi xalqın maariflənməsini, həmçinin güc yolunu, o cümlədən, terroru seçmişdir. Tezliklə "Difai"nin fəaliyyəti demək olar ki, Yelizavetpol quberniyasının bütün ərazisini əhatə et-

mişdir. Bakıda fəaliyyət göstərən Mərkəzi komitə ilə yanaşı Yelizavetpolda, Şuşada, Qazaxda və Yelizavetpol quberniyasının digər məntəqələrində yerli komitələr yaradılmışdı (4; v. 3; 9, vv. 15-16). Maraqlıdır ki, 1906-1907-ci illərə aid rəsmi yazışmalarda Ə.Ağaoğlu birmənalı olaraq "Difai"nin yaradıcısı və Mərkəzi komitəsinin rəhbəri kimi qeyd edilsə də (4, v. 6; 5, v. 35), Əhməd bəyin partiya lideri kimi əməli işinə, həmçinin partiyanın Bakıda fəaliyyətinə dair heç bir məlumat qalmamışdır. 1907-ci il iyunun 9-da Əhməd bəyin mənzilində axtarış aparılmış, lakin hər hansı şübhəli fakt aşkar olunmamışdır (5, v. 35).

Arxiv mənbələrindən göründüyü kimi, "Difai" əsasən Azərbaycanın qərb bölgələrində, ilk növbədə Qarabağda fəaliyyət göstərmişdir. Yelizavetpol quberniyasının əhalisi "Difai"yə onları daşnaklardan müdafiə edən real qüvvə kimi baxdığı üçün partiya burada geniş dəstək qazanmışdır. Difaiçilər qırğınlara məruz qalmış bölgələrin silahla təmin olunması işini təşkil etmişlər. Sənədlərdə qeyd olunduğu kimi, silah təchizatı işinə Ələkbər bəy Rəfibəyovun, vəkil Xəlil bəy Xasməmmədovun, keçmiş pristav köməkçisi Ə.Quliyevin, məhkəmə tərcüməçisi K.Rəfibəyovun və yerli sakin Xanlar Xanəli oğlunun başçılığı ilə "Azərbaycan komitəsi" rəhbərlik edirdi. Polisin məlumatına görə, həmin komitə silah almaq üçün bütün əhalinin üzərinə xüsusi pul vergisi qoymuş və xeyli vəsait yığa bilmişdir. Komitə müsəlmanlar arasında rəğbət qazanmışdır, o, hər həftə məsciddə toplaşaraq cari məsələləri müzakirə edir, lazımi sərəncamları verir, mülki işlər üzrə mübahisələri həll edirdi (8, vv. 4-5). Hökumətin əlində olan məlumatlara görə, silah almaq üçün pul toplanması təkcə Yelizavetpol quberniyasında deyil, həmçinin Bakı quberniyasında və Naxçıvan qəzasında aparılırdı (10, vv. 1-3). Eyni zamanda, agentura məlumatlarından bəlli idi ki, H.Z.Tağıyev "Difai"yə maddi yardım göstərir (9, v. 14), partiyanın bir çox üzvü isə onun başçılıq etdiyi Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti ilə əlaqə saxlayırdılar (4, v. 3).

"Difai" ilə sıx əlaqədə olan təşkilatlardan biri də 1906-cı il noyabrın sonunda Bakıda təsis edilən Yelizavetpol Quberniyasının Aclıq Keçirən Müsəlmanlarına İanələr üzrə Mərkəzi Komitə idi. Onun tərkibinə ziyalıların və burjuaziyanın görkəmli nümayəndələri, o cümlədən Ə.Ağaoğlu daxil idi. İanələr H.Z.Tağıyevin kontorunda, "İrşad" və "Kaspi" qəzetlərinin redaksiyalarında, həmçinin komitənin bütün üzvlərininmənzillərində qəbul





edilirdi. Toplanan pullar saxlanılmaq üçün H.Z.Tağıyevin kontoruna verilirdi (1). Qısa müddət ərzində Cəbrayılda, Yelizavetpolda və Nuxada yerli komitələr təşkil olunmuşdur. Onların vəzifəsi ianələrin verilməsi haqqında xahişnamələri toplamaq və Mərkəzi komitəyə göndərmək idi.

Mərkəzi komitənin iclasında qəbul edilmiş qərara əsasən Şimali Qafqazda ianə toplanması işini təşkil etmək üçün Ə.Ağaoğlu oraya ezam olunmuşdur (1). 1906-cı ilin sonunda Şimali Qafqazda səfərdə olan Əhməd bəyin fəaliyyəti nəticəsində Vladiqafqaz və Xasavyurtda İanələr üzrə Mərkəzi Komitənin yerli şöbələri yaradılmışdı. Bu barədə Ə.Ağaoğlu H.Z.Tağıyevin adına göndərdiyi teleqramda bildirmişdir. Eyni zamanda, H.Z.Tağıyevin həyat yoldaşı Sona Tağıyevaya ünvanladığı teleqramda Ə.Ağaoğlu Vladiqafqazda müsəlman qadın komitəsinin yaradıldığını xəbər vermişdir (17). Şimali Qafqazda bu cür komitələrin təşkil olunması, şübhəsiz ki, müsəlmanların Yelizavetpol quberniyasında zərər çəkmiş dindaşları ilə həmrəyliyinin bariz nümunəsi idi. Şimali Qafqazda ianə toplanmasına H.Z.Tağıyevin vəsatətinə əsasən canişin tərəfindən rəsmən icazə verilmişdir (19).

1906-cı il dekabrın 24-də Ə. Ağaoğlunun Yelizavetpoldan göndərdiyi teleqramda bildirilirdi ki, burada da yerli komitə təşkil olunmuşdur. Komitənin tərkibinə axund M.Pişnamazzadə, Ə.Rəfibəyov, A.Ziyadxanov, şəhər başçısı Ə.Adıgözəlov, Ə.Xasməmmədov və b. daxil idi (20). Qeyd olunmalıdır ki, komitənin adıçəkilən bir çox üzvü bu və ya digər şəkildə "Difai" ilə əlaqədə olub, ya onun təşkilati strukturlarına daxil idilər, ya da partiyaya maddi yardım göstərirdilər. Göründüyü kimi, 1906-cı ilin noyabr-dekabr ayları ərzində Ə.Ağaoğlu Şimali Qafqaza səfər etmiş, həmçinin "Difai"nin fəallıq göstərdiyi Yelizavetpol quberniyasında olmuşdur.

"Difai" partiyası daha çox müsəlmanların düşməni elan olunmuş məmurlara qarşı terror aksiyaları ilə məşhurlaşmışdır. Bunların arasında Yelizavetpol quberniyasının bəzi qəzalarının general-qubernatoru V.N.Qoloşapova, sabiq Naxçıvan qəza rəisi A.K.Enkelə, V.N.Qoloşapovun dəftərxanasının sabiq müdiri K.V.Kleşinskiyə və başqalarına qarşı terror aktları var idi (13, vv. 18-20; 18). 1906-cı ilin noyabrında Tiflisdə difaiçilər V.N.Qoloşapova qarşı sui-qəsd törətdilər. Naməlum şəxs generalın faytonuna atılmış, general onu itələmiş, o isə aralanaraq iki dəfə atəş açmışdır. Nəticədə güllə V. N.Qoloşapovun kəlləsinə dəymiş və sağ çənəsindən çıxmışdır. General ağır yaralanmış, lakin sağ qalmışdır (15).

"Difai" haqqında arxivdə olan natamam məlumatlar söyləməyə əsas verir ki, təşkilat 1909-cu ildə öz fəaliyyətini dayandırmışdır. Repressiyalar, axtarışlar, "Difai" rəhbərlərinin və üzvlərinin həbs və sürgün olunmaları 1908-1909-cu illərdə öz zirvə nöqtəsinə çatdı. Ə.Ağaoğlu da bu təqiblərdən kənarda qalmamışdır. Yelizavetpol qubernatorunun 14 mart 1908-ci il tarixli məktubunda göstərilirdi ki, "Difai"nin fəaliyyətinə tam son qoymaq üçün birinci növbədə partiyanın mərkəzi komitəsi və onun sədri Ə.Ağaoğlu Cənubi Qafqazdan çıxarılmalıdır (4, vv.40-41). Bu niyyətin həyata keçirilməsində yerli administrasiya Ə.Ağaoğlunun əleyhinə qalxmış Qafqazın erməni və bəzi rus qəzetləri simasında özünə dəstək qazanmışdır. Bundan əlavə Əhməd bəyin öz həmvətənləri arasında da bədxahları az deyildi – mürtəce müsəlman ruhanilərinin və varlı adamların onunla çoxdankı haqq-hesabları var idi. Mənəvi və fiziki təzyiqlər Ə.Ağaoğlunu öz gələcəyi, həm də ailəsinin təhlükəsizliyi haqqında düşünməyə vadar etdi. Və o, Azərbaycandan getmək qərarını qəbul etdi. 1909-cu ilin yayında Əhməd bəy vətəni tərk etdi və Türkiyəyə köçdü. Bununla da Ə.Ağaoğlunun həyatında yeni səhifə açılmış oldu – o, əvvəlcə Osmanlı dövlətinin, daha sonra isə Türkiyə Cümhuriyyətinin görkəmli ictimai-siyasi və dövlət xadimi kimi şöhrət qazandı...

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Ağayev Ə. İanə komitəsi. // "İrşad", 28 noyabr 1906-cı il, № 273.
2. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (bundan sonra - AR DTA): f. 46, siy. 1, iş 218.
3. AR DTA: f. 62, siy. 1, iş 59.
4. AR DTA: f. 524, siy. 1, iş 15.
5. AR DTA: f. 524, siy. 1, iş 16.
6. AR DTA: f. 524, siy. 1, iş 18.
7. AR DTA: f. 524, siy. 1, iş 28.
8. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (bundan sonra – ARPİİ SSA): f. 276, siy. 8, iş 170.
9. ARPİİSSA: f. 276, siy. 3, iş 284.
10. Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivi: f. 13, siy. 29, iş 64[1].
11. Qafqaz Ümummüsəlman komitəsi "Difai". // "İrşad", 13 oktyabr 1906-cı il, № 241.
12. Ordubadi M. S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Ərəb əlifbasından çevirən, sadələşdirən və çapa hazırlayan Ə. Bağırov. Bakı, 2007.





13. Агаларов А. Р. Краткий очерк из истории тюркской партии «Дифаи». // ARPİİ SSA: f. 276, siy. 10, iş 109.
14. «Каспий», 1 сентября 1906 г., № 188.
15. «Каспий», 11 ноября 1906 г., № 243.
16. «Каспий», 29 ноября 1906 г., № 256.
17. «Каспий», 8 декабря 1906 г., № 263.
18. «Каспий», 12 декабря 1906 г., № 266.
19. «Каспий», 10 декабря 1906 г., № 265.
20. «Каспий», 24 декабря 1906 г., № 277.

## ONCE AGAIN ABOUT THE "DIFAI" PARTY AND ITS FIRST DECLARATION
## SUMMARY

The role of the Azerbaijani turks in the process of political organization of "Difai" party which was created by Ahmed bey Aghaoghlu in 1906 was carried out in the article and the declaration of the party which was published both Azerbaijani and russian languages was investigated. Carried research showed that text written in Azerbaijani language is different from russian and is a shorten version of the second one. The Russian text which is stored in the archive is the full version of the summarized declaration which was published in the "Irshad" newspaper.

## ЕЩЕ РАЗ О ПАРТИИ «ДИФАИ» И ЕЕ ПЕРВОЙ ПРОКЛАМАЦИИ
## РЕЗЮМЕ

В статье исследуется роль созданной Ахмед беком Агаоглу в 1906 г. Партии «Дифаи» в процессе политической самоорганизации азербайджанских тюрков, анализируется прокламация партии, опубликованная на азербайджанском и русском языках. Исследование показало, что текст на азербайджанском языке отличается от текста на русском и является сокращенным вариантом второго. Русский текст, хранящийся в архиве, есть полный вариант прокламации, подвергшейся сокращению в газете «Иршад».